

# Vətən həsrətli Nazim...

61 il ömür sürmüş şairin Vətən nisgilini onun mavi gözlərində, titrək dodaqlarında görənlərdən...

> Moskvada, 1961-ci ildə Nazim Hikmətin "Qəribə adam" pyesinin 250-ci tamaşasından sonra, onun dediyi: "pyeslərimi sevgili İstanbulumda görə biləydim" sözləri indi də qulaqlarımda səslənir... Heykəltəraş Münəvvər Rzayevaya vəsiyyətini də dönə-dönə xatırlayıram: "Heykəlimi mən öləndən sonra yaradarsan. Özü də bilirsən necə? Yalnız iki gözlərimi verərsən. Bilinsin ki, mənəm baxan. Bilinsin ki, bu şəffaf damcılar ömrünün sonuna qədər Vətən həsrəti ilə yanan bir insanın gözləridir"

Nazim Hikmətin ölüm dəhşəti ilə bağlı bir şeiri var: "Güneye götürmeyin beni, ölmek istemiyorum. Ölmek istemiyorum, Kuzeye götürmeyin beni. Doğuya götürmeyin beni, ölmek istemiyorum. Batıya götürmeyin beni. Beni burda burakmayın, götürün bir yerlere. Ölmek istemiyorum, ölmek istemiyorum".

("Nereden gelip nereye gidiyoruz". 22.11.1962)

Həmişə bu misraları oxuyanda əli hər yerdən üzülmüş, əlacsızlıq içərisində çabalayan, ömrü çırpıntılı, səksəkəli bir yuxuya bənzəyən Nazim Hikmətin taleyini düşünürəm...

Son dəfə həmişəlik gəldiyi Moskvadan geriyə – Türkiyəyə yolu bağlı idi. Sovetlərdə yaşadığı mühit onu alqışlara, gül-çiçək dəstələrinə bürüsə də, sonralar o, bu zahiri dəbdəbənin arxasında cəmiyyətin eybəcərliklərini apaydın görə bilmişdi. Sadəlövh, günahsız türk inqilabçılarının, o cümlədən dostu Affan İkmekin Azərbaycanda yaşadığı dövrdə Sibirə sürgün edilməsinin, Müşfiqin, Cavidin faciəsinin köklərini araşdırır, araşdırdıqca da dəhşətə gəlirdi. Belə müdhiş duyğularla yaşayır, səbir edirdi. Günlərin birində bu səbir daşı çat-çat oldu... Nazim Hikmətin son şeirindəki "Gelsene dedi bana. Kalsana dedi bana. Gülsene dedi bana. Ölsene dedi bana. Geldim. Kaldım. Güldüm. Öldüm" misraları, sanki arvadı Veraya yox, bütün Sovet Rusiyasına müraciətlə deyilmişdi.

Gənclik illərində Moskvaya məftun olmuş Nazim Hikmət 50-ci illərin sonunda bağlandığı ideala inamını itirmişdi. İnamı itirmək isə onunçün bütün faciələrin ən dəhşətlisi idi.

***Anlamağa çalışıyorum inanmayı***
***yitirmenin pahasına.***
***Bir söz söyleyecektim sana, -***
***söyleyemedim.***
***Dünyamda sabahleyin aç karına***
***içilen ciğaramın tadı.***
***Ölüm kendinden önce bana***
***yalnızlığını yolladı...***

("Kocalmağa alışıyorum", 12. I. 1963)

Gənc Nazim



Nazim sosializm cəmiyyətinin eybəcərliklərini gördükdən sonra buna dözə bilmirdi. Bir yandan da məmləkət həsrəti! Oğluna göndərdiyi oyuncaqların geri qayıtması acısı. Varnadan oğluna səslənməsi, tək-tənha, hər əzaba qatlaşan Münəvvərini xatırlayarkən çəkdiyi vicdan əzabı, dərin peşimançılıq hissi, əsərlərinin Türkiyədə işıq üzü görməməsi, onu sevənlərin təqib edilməsi, - bütün bunlar Nazimi sarsıtdı və şairin gənclik dostu Vala Nurəddinin sözləri ilə desək: "Bu dünyadan Nazim geçdi".

Bu yerdə görkəmli türkşünas, professor Tofiq Məliklinin məşhur türk şairi Fazıl Hüsnü Dağlarcaya həsr etdiyi çox dəyərli kitabındakı bir məqamı oxucuların diqqətinə çatdırmaq istəyirəm. Tofiq Məliklinin "Siz Nazim Hikmətlə görüşdünüzmü?" sualına F.H.Dağlarca belə cavab vermişdi: "Təəssüf ki, yox. Mən orduda xidmət edirdim. İstanbulda nadir hallarda olurdum. Onunla çox görüşmək istəyirdim, ancaq alınmırdı. 1937-ci ildə onu həbs etdilər. Bundan sonra hökumət Nazimin bütün kitablarını yasaq etdi. Və tez bir vaxtda bizə təcili olaraq Nazimin bütün kitablarını toplayıb təhvil vermək əmri verildi. Ancaq mən Nazimin kitablarını əldən vermək istəmirdim. Hərbi hissədə saxlaya bilməzdim, evə poçtla göndərmək də təhlükəli idi. Bax, o vaxt mənim Nazimlə dəhşətli bir "vidalaşmam" oldu. Mən səhərəcən onun bütün kitablarını bir daha oxudum, sonra... yandırdım. Bu, mənim üçün heç vaxt unutmayacağım müdhiş, əzablı bir günah oldu".

> Nazim Hikmət ilk şeirini qələmə alan gündən özünü təsdiq edən şairlərdən olub və həmin andan etibarən də yaradıcılığı birmənalı qarşılanmayıb. İstər məfkurəsinə görə, istərsə də türk poeziyasına yeni ideya, yeni üslub gətirdiyinə görə. Amma bu bir həqiqətdir ki, dövrünün Əbdülhaqq Hamid kimi nəhəng sənətkarı Nazim Hikməti bəyənmişdi. Özü də təkcə Əbdülhaqq Hamid yox, yaşadığı dövrün əksər qüdrətli ədəbi simaları Nazim Hikmətin sənətini yüksək qiymətləndirmişdi. Amma şairin kommunist ideyalarına sədaqətini bəyənməyib onu tənqid, hətta təhqir də etmişdilər.

Nazim Hikmət ilk dəfə Moskvaya gəldiyi vaxt sovet cəmiyyətini ideal bir quruluş kimi görmüşdü. 1937-1950-ci illərdə Türkiyədə həbsxanada yatdığı vaxtlarda "Zoya", "Moskva simfoniyası" kimi əsərlərində Sovetlər ölkəsini, faşizmə qarşı sovet xalqlarının mübarizəsini gur səslə vəsf etmişdi. Sovet yazıçıları da Nazimin müdafiəsinə qalxmışdılar. Eləcə də Azərbaycanın söz ustaları Nazim Hikmətin məhbəsdən azad edilməsi uğrunda öz səslərini dünyanın mütərəqqi insanlarının səsinə qatmış, şairin zindandan azad olunmasını tələb etmişdilər.

Ömrünün son illərində Nazim Hikmət kommunizm ideyalarının, sosializm cəmiyyətinin mahiyyətini başa düşmüşdü. Onun hər addımının izlənilməsi, Sovet bürokra-





Aqşin Babayev və Nazim Hikmətin bacısı Samiyə xanım



Karşı yaka memleket...

tizmini ifşa edən "İvan İvanıç varmıydı, yoxmuydu" pyesinin repertuardan çıxarılması şairdə xəyal qırıqlığı yaratmışdı.

Moskvada yaşadığı illərdə şairin ümid yeri ancaq Azərbaycan idi. Mikayıl Rəfili, Süleyman Rüstəm, Rəsul Rza kimi şairlərlə, Əkbər Babayev kimi tədqiqatçılarla dostluğu ona dayaq idi. Bu dostluq qardaşlıq zirvəsində idi. Xüsusən "sabahın şairi" (N.Hikmətin öz sözləridir) Rəsul Rza ilə dostluğu onunçün aman eviydi.

Nazim məmləkətinə bütün varlığı ilə bağlı idi. Şeirlərinin ana vətənində nəşr olunmaması onu çox üzürdü. Şair deyirdi ki, mən bilirəm ölümümdən sonra əsərlərim Türkiyədə işıq üzü görəcək. Ona görə də "ölmək zorundayım."

Əgər bir gün Nazimin Vətən həsrətinə yazdığı şeirləri ayrıca kitab şəklində nəşr olunsa, o zaman şairin çəkdiyi iztirablar gözlərimiz önündə daha aydın şəkildə canlanar. Həmin şeirlər bir deyil, beş deyil. "Ağcaqayın meşəsində", "Yeni il", "Gəmi", "Balkon", "Ceviz ağacı", "Mavi liman", "Münəvvərə məktub yazdım, dedim ki...", "Sağ əlim", "Sebastyan Baxın bir nömrəli Dominor konserti", "Dunay çayı", "Məmləkətim haqqında", "Bir Üsküdar balkonunda", "Faustun evi" və s. sənət nümunələri buna sübutdur. Bu şeirlərdə qürbət eldə yaşayan Nazimin böyük həsrəti, ürək ağrısı bütün incəliklərinə qədər duyulur.

Nazimin bir gün, yəqin ki, "Məmləkətim" adlı bir kitabı çapdan çıxar. Və o kitabda Nazimin təkcə şeirləri deyil, Türkiyə haqqında düşüncələri, uca kürsülərdən Türkiyə, türk xalqı, türk dili haqqında dediyi dəyərli sözlər, dostlarına, yaxınlarına yana-yana açıb-söylədiyi ürək duyğuları da öz əksini tapar... Məsələn, bu sözləri:

> "Dünyanın ən yaxşı insanlarından olan türk xalqının və dünyanın ən gözəl dillərindən biri və bəlkə də ən başda gələnlərindən olan türk dilinin yabançı diyarlarda tanınmasına vəsilə ola bilmək, ömrümün ən böyük sevinci və şərəfi olur. Bir kəndli torpağını və öküzünü, bir dülgər taxtasını və rəndəsini necə sevirsə, mən də türk dilini elə sevirəm".





Səməd Vurğunla



Fikrət Əmirovla



Tofiq Quliyevlə



"Bakü'ye geldim,



dünyalar benim oldu..."

**3 iyun 1963-cü il.** Nazimin qəfil ölümü onu tanıyanları, sevənləri qəlbən sarsıtdı. Ölümünə ağılar deyildi, şeirlər yazıldı. Bu ağıların, şeirlərin böyük bir qismi Nazimi həmişə yaşadan, heç zaman unutmayan Azərbaycanın payına düşdü. "Bakıya gəldim, dünyalar mənim oldu" deyirdi şair.

Nazim Hikmət həmişə Bakıdadır, Azərbaycandadır, xatirəmizdədir, ürəyimizdədir...

Aqşin Babayev,
filologiya elmləri doktoru,
professor